**Bank xidmətlərinin göstərilməsinə dair ümumi şərtlər toplusu**

Bir tərəfdən Azərbaycan Respublikasının qanunvericiliyi, Mərkəzi Bankın lisenziyası və öz Nizamnaməsi əsasında fəaliyyət göstərən "PAŞA Bank" Açıq Səhmdar Cəmiyyəti şəxsində (bundan sonra Bank adlandırılacaq) və digər tərəfdən bundan sonra Müştəri adlandırılacaq, birlikdə Tərəflər adlandırılacaqlar, aşağıdakılar barədə Bank xidmətlərinin göstərilməsinə dair ümumi şərtlər toplusunu (bundan sonra Müqavilə adlandırılacaq) bağladılar.

## I. MÜQAVİLƏNİN PREDMETİ

1. Bu Müqavilədə, Müştərinin müraciəti əsasında ona bank hesabının açılması, depozitin yerləşdirilməsi, maliyyələşdirilməsi (kredit, kredit xətti və ya overdraft), ödəniş kartlarının verilməsi və bu xidmətlərin göstərilməsindən irəli gələn şərtlər öz əksini tapmışdır.
2. Hazırki Müqavilədə həmçinin, Tərəflər arasında elektron daşıyıcılar vasitəsi ilə bank xidmətləri üzrə sərəncamların verilməsi və qəbulu, bu sərəncamların icrası ilə bağlı elektron imzanın qəbuluna dair tələblər öz əksini tapmışdır.
3. Bu Müqavilənin imzalanması Bank tərəfindən Müştəriyə bu Müqavilə ilə tənzimlənməyən digər xidmətlərin göstərilməsini məhdudlaşdırmır və həmin münasibətlərə şamil edilmir.
4. Yuxarıda qeyd olunan xidmətlərdən hər birinin Bank tərəfindən Müştəriyə təqdim olunması üçün bu Müqavilədən başqa müvafiq Ərizə formalarının da Müştərinin özü və ya səlahiyyətli nümayəndəsi tərəfindən doldurularaq Banka təqdim olunması tələb olunur.
5. Müştəriyə yalnız müvafiq Ərizə formasında qeyd etdiyi xidmət təqdim olunacaq. Bu ərizə formaları kağız daşıyıcıda olduqda 2 (iki) nüsxədə olacaq. Ərizə formaları hər iki tərəfin imzası və möhürü olan tərəfin möhürü ilə, yaxud Tərəflərin gücləndirilmiş elektron imzaları ilə təsdiqləndiyi andan qüvvəyə minəcək.

**General Terms and Conditions for provision of Bank Services**

"PASHA Bank" OJSC, operating under the legislation of the Republic of Azerbaijan, license of the Central Bank and its own Charter, (hereinafter referred to as "Bank"), on one side, and hereinafter referred to as Customer, on other side, collectively referred to as Parties, concluded General Terms and Conditions for provision of Bank Services (hereinafter referred to as Agreement) on the following terms.

## I. SUBJECT OF THE AGREEMENT

1. The present Agreement reflects the terms and conditions on opening a bank account, placement of deposit, financing (loan, credit line or overdraft), plastic card's issuance upon Customer's request.
2. The present Agreement also reflects the sending and receiving orders on banking services through electronic carriers between the Parties, and the requirements for acceptance of electronic signature relating to the execution of these orders.
3. Signing this Agreement shall not restrict the provision of other services not regulated under this Agreement by the Bank to the Customer , and not apply to those relations.
4. In order to provide with each of the above mentioned services of the Bank to the Customer, it is required to submit to Bank, in addition to the Agreement, the relevant Application forms filled out by Customer personally or his/her authorized representative.
5. Customer will only be provided with the service indicated by him/her in the relevant Application form. These application forms will be in 2 (two) copies  in case of paper-based applications. The application forms will be effective from the moment upon the approval by signatures and stamps of the both parties or confirmed by enhanced electronic signatures of the Parties.

6. Hər bir bank xidməti üzrə həmin xidmətin başlama və bitmə tarixləri, faiz, xidmətin göstərilmə yeri və sair şərtlər qeyd olunan Ərizə formalarında öz əksini tapacaq.
7. Hər bir bank xidməti üzrə Xidmət haqqı Bankın qüvvədə olan Tariflər kitabçasında qeyd olunur.
8. Bu Müqavilə çərçivəsində tərəflərin imzaladığı bütün Ərizə formaları bu Müqavilənin ayrılmaz hissəsini təşkil edir. Tərəflər arasında imzalanmış hər-hansı Ərizə forması ilə hazırki Müqavilənin şərtləri arasında uyğunsuzluq olarsa, Ərizə formasında qeyd olunan şərtlər üstünlük təşkil edəcək.
9. Tərəflər arasında daha əvvəl imzalanmış və qüvvədə olan digər müqavilələr mövcud olduğu halda, bu Müqavilənin imzalanması həmin müqavilələr üzrə yaranmış münasibətlərə təsir etmir.
10. Bu Müqavilə üzrə xidmətlər yetkinlik yaşına çatmayan şəxslərə qanunvericiliyin tələbləri nəzərə alınmaqla valideynlərin razılığı olmadan təqdim edilmir.

6. The start and end dates, interest rate, service fee, the place of service's provision and other terms of each services provided by the Bank will be reflected on the mentioned Application forms.
7. The service fee for each bank service provided is stated within the valid Tariff Book of the Bank.
8. All Application forms, signed by the Parties within the framework of the present Agreement, are an integral part of the present Agreement. In case of the discrepancy between the terms and conditions of the respective Application form and the present Agreement, the terms and conditions stated in the Application form shall prevail.
9. Conclusion of the present Agreement shall not affect the relationships pertaining from the previous Agreements duly signed by and are effective between the Parties.
10. The services under this Contract are not available to juveniles without consent of parents, in accordance with to legislation requirements.

## II. BANK HESABI

### 1. Cari hesab barədə məlumat

1.1. Bank, Müştərinin müraciəti əsasında ona “Bank hesabının açılması üçün ərizə” formasında göstərilən valyuta(lar)da cari hesab açmağı, onun tapşırığı ilə Azərbaycan Respublikası qanunvericiliyi, Mərkəzi Bankın və Maliyyə bazarlarına nəzarət orqanının normativ sənədləri ilə nəzərdə tutulmuş bütün hesablaşma və kassa əməliyyatlarını həyata keçirməyi, yəni açılmış hesaba daxil olan pul vəsaitini qəbul etməyi və hesaba mədaxil etməyi, hesabdan müvafiq məbləğlərin köçürməyi və verməyi, hesab üzrə digər əməliyyatların aparılmasına dair Müştərinin sərəncamlarını yerinə yetirməyi öhdəsinə götürür. Müştəri isə bunun müqabilində Bankın qüvvədə olan tariflərinə uyğun olaraq müvafiq xidmət haqqını ona ödəməyi öhdəsinə götürür.

1.2. Müqavilənin qüvvədə olduğu müddət ərzində açılan yeni hesablar üzrə münasibətlərə də eyni qaydalar tətbiq ediləcək.

## II. BANK ACCOUNT

### 1.Information on the current account

1.1.Bank undertakes responsibility ,for opening a current account in the currency(ies), mentioned in the “Application form for Opening a Bank Account”, execution of all payments and cash transactions, acceptance and deposit of funds in the newly opened account, considered in accordance with the legislation of the Republic of Azerbaijan and normative documents of the Central Bank and Financial Markets Supervison Authority, transfer and issuance of relevant amounts from the account, as well as execution of Customer's order on conduction of other operations on the account upon the request of the Customer. While, the Customer, in return, undertakes to pay relevant service fee in accordance with the Bank's tariffs in force.

1.2 Same terms will be applied, equally, to the relations on new accounts, opened during the validity time of the Agreement.

1.3. Hesab üzrə Müştəri sərəncamları həm kağız, həm də elektron daşıyıcılarda verilə və qəbul oluna bilər. Sərəncamların elektron daşıyıcılarda verilməsi ilə bağlı Tərəflər arasında yaranan münasibətlər Müqavilənin VII bölümü ilə tənzimlənir.

**2. Bank hesabı xidmətinin göstərilməsi ilə bağlı tərəflərin hüquq və vəzifələri**

*2.1. Bankın vəzifələri:*

2.1.1. Müştəriyə hesablaşma-kassa xidməti üzrə kompleks xidmət təqdim etmək. Bura Müştərinin hesablarının açılması, aparılması və onun tapşırığı ilə Bankın lisenziyasında nəzərdə tutulmuş bütün hesablaşma və kassa əməliyyatlarının həyata keçirilməsi daxildir.

2.1.2. Bankın qüvvədə olan tariflərinə uyğun olaraq xidmət haqlarının ödənilməsi şərtilə Müştəriyə bilavasitə hesablaşma-kassa xidmətinə aid olan və ya aid olmayan digər xidmətləri (kreditləşdirmə, xarici valyutanın alınıb satılması, və s.) göstərmək.

2.1.3. Müştərinin tapşırığı ilə Azərbaycan Respublikası Mərkəzi Bankının və Maliyyə Bazarlarına Nəzarət orqanının müvafiq qaydaları və Bankın daxili qayda və prosedurlarına ciddi riayət etməklə hesablaşma əməliyyatlarını vaxtı-vaxtında və düzgün yerinə yetirmək.

2.1.4. Qanunvericiliklə nəzərdə tutulmuş məqsədlər üçün ona hesablaşma hesabından nağd pul vəsaiti vermək. Bu halda Müştərinin hesabından pul vəsaitlərinin silinməsi ardıcıllığına dair qanunvericiliyin tələbləri nəzərə alınır.

2.1.5. Müştərinin hesabında olan pul vəsaitinə dair əməliyyatı yalnız onun tapşırığı, yaxud onun razılığı ilə həyata keçirmək. Bank tərəfindən Müştərinin hesabından akseptsiz vəsaitin silinməsi yalnız qanunvericilik və Müqavilənin II.2.2.2. və II.2.2.4. bəndlərində göstərilən hallarda həyata keçirilir.

2.1.6. Nağd pulun qəbulu və verilməsini Mərkəzi Bankın qaydalarına və normativ xarakterli aktlarına və Bankın daxili qayda və prosedurlarına ciddi riayət etməklə həyata keçirmək.

2.1.7. Hesabda aparılmış əməliyyatlar üzrə Müştəriyə hesabdan çıxarış vermək.

1.3. The Customer orders on the account may be given in hard copy or in electronic carriers The relations between the Parties on giving the orders in electronic carriers shall be described in IV section herein.

**2. Parties' rights and responsibilities on the provision of the bank account's services.**

*1.1. Bank Responsibilities.*

2.1.1. To provide the Customer with complex service on payment- cash services. It includes conduct of Customer's accounts and implementation of all payments and cash transactions, considered in Bank's license upon Customer's order.

2.1.2. To provide other services, which directly relate or not relate to payment - cash services (lending, foreign currency exchange etc.) to Customer in accordance with Bank's tariffs in force.

2.1.3. To ensure timely and accurate implementation of payment operations in strict compliance with the respective rules of the Central Bank of the Republic of Azerbaijan and Financial Markets Supervison Authority and internal rules and procedures of the Bank.

2.1.4. To give the Customer cash funds from payment account for the purposes considered in legislation. In this case, the legislative requirements on sequence of funds write-off from Customer's account shall be considered.

2.1.5. To execute transaction on funds on Customer's account only upon his/her order or consent. Direct debit (without dispute) of funds from Customer's account is only implemented in cases, considered in legislation and clauses II.2.2.2 and II.2.2.4. of the present Agreement.

2.1.6. To implement cash acceptance and issuance in compliance with rules and normative acts of the Central Bank and internal rules and procedures of the Bank.

2.1.8. Bank, hesab üzrə məlumatların və əməliyyatların sirrinin mühafizəsinə təminat verir. Müştərinin razılığı olmadan bu məlumatlar üçüncü şəxslərə yalnız qanunvericiliklə xüsusi olaraq nəzərdə tutulmuş hallarda verilə bilər.

2.1.9. Müştəriyə hesablar, bank avadanlığı, sənədlərin dövriyyəsi qaydaları və hesablaşma-kassa xidmətinə bilavasitə aidiyyəti olan digər məsələlər üzrə məsləhətlər vermək.

*2.2. Bankın hüquqları:*

2.2.1. Müştərinin qüvvədə olan qanunvericilik, habelə Bank qaydaları, hesablaşma sənədlərinin rəsmiləşdirilməsi proseduru və onların Banka təqdim edilməsi müddətini pozduğunu sübut edən dəlillər olduqda hesablaşma-kassa əməliyyatlarının həyata keçirilməsindən imtina etmək.

2.2.2. Müştərinin hesabındakı pul vəsaiti ilə aparılan əməliyyatlar üzrə özünün qüvvədə olan xidmət tarifləri ilə müəyyənləşdirilmiş məbləğdə xidmət haqqını Müştərinin hesabından mübahisəsiz silmək.

2.2.3. Müştərini 5 (beş) təqvim günü əvvəlcədən yazılı xəbərdar etməklə birtərəfli qaydada xidmət tariflərinə dəyişiklik etmək. Dəyişikliklərin heç biri Müştərinin vəziyyətini ağırlaşdırmadığı halda yazılı xəbərdarlıq müddəti 1 (bir) gün təşkil edir. Yazılı xəbərdarlığa məktub, elektron əlaqə vasitəsi (e-mail), faks, SMS məlumatlandırma və digər vasitələrlə göndərilən xəbərdarlıq aiddir.

2.2.4. Kredit, faizlər, komissiyalar, Banka ödənilməli olan ödənişlər, müqavilə münasibətləri və qanunvericiliklə müəyyən olunan qaydada üzrə yaranmış borcların (tələblərin) ödənilməsinə yönəldilən pul vəsaitlərini Müştərinin Bankda mövcud olan bütün hesablarından akseptsiz qaydada silmək.

2.2.5. Müştərinin hesabına səhvən daxil olmuş məbləğləri onu yazılı qaydada xəbərdar etməklə hesabından silmək. Yazılı xəbərdarlığa məktub, elektron əlaqə vasitəsi (e-mail), faks, SMS məlumatlandırma və digər vasitələrlə göndərilən xəbərdarlıq aiddir.

2.2.6. Qanunvericilikdə baş vermiş dəyişiklik və ya Bank tərəfindən Müştəri haqqında əlavə məlumat əldə etmək zərurəti yarandığı

2.1.7. To provide Customer with account statements for transactions carried out on account.

2.1.8. Bank provides guaranty for protection of confidentiality of information on account and transactions. This information may only be given to third parties in special cases, considered in legislation without Customer’s consent.

2.1.9. To consult the Customer on accounts, banking technics, validity period of documents and other issues, directly related to payment-cash services.’

*2.2. Bank Rights:*

2.2.1. To reject implementation of payment-cash transactions, in case of evidences of Customer’s non-compliance with applicable legislation, as well as Bank’s rules, procedure of registration of payment documents and violation of the effective period for their submission to the Bank.

2.2.2. To direct debit (without dispute) from Customer’s account the service fee, determined as the amount, defined in accordance with the Bank’s tariffs in force on transactions, carried out in cash.

2.2.3. To modify service tariffs unilaterally by submitting a written notification to a Customer 5 (five) calendar days in advance. Written notification includes the notification, sent by mail, electron communication tool (e-mail), fax, SMS and notification sent by other means. The written notification period is shortened to 1 (one) day if none of the changes will aggravate the Customer's status.

2.2.4. To direct debit (without dispute), from all Customer’s accounts in Bank the amounts, considered for payment of loan, interest rate, fees, payments to be paid to the Bank, contractual relations and debts (claims) occurred in accordance with the legislation .

2.2.5. To write-off from the amounts, mistakenly placed to Customer’s account, by submitting written notification. Written notification considers the notification, sent by mail, electronic communication tool (e-mail), fax, SMS and notification sent by other means.

hallarda tələb olunan əlavə sənədlərin təqdim edilməsini Müştəridən tələb etmək.

2.2.7. Müştərinin hesabında 1 il ərzində 1 AZN və ya ekvivalentindən az vəsait olduqda və ya 1 ildən artıq müddətə hesab üzrə heç bir əməliyyat aparılmadıqda birtərəfli qaydada bank hesabını bağlamaq.

2.2.8. Bank hesabı üzrə həyat keçirilən əməliyyatın (istənilən növ mədaxil və/və ya məxaric) valyutası həmin hesabın valyutasından fərqli valyutada olduqda, əməliyyatın icra edildiyi günə olan Bankın kommersiya məzənnəsi və Bankın qüvvədə olan tariflərinə uyğun şəkildə müvafiq hesabın və ya əməliyyatın valyutasına mübadilə edərək əməliyyatı həyata keçirmək.

*2.3. Müştərinin vəzifələri:*

2.3.1. Banka təqdim olunan tapşırıqların AR Mərkəzi Bankının və Maliyyə bazarlarına nəzarət orqanının qüvvədə olan normativ sənədlərinə və Bankın daxili qaydalarına uyğunluğunu təmin etmək.

2.3.2. Hesabın açılması üçün Banka təqdim edilmiş sənədlərdəki məlumatlarda olan bütün dəyişikliklər haqqında Bankı 3 (üç) iş günü ərzində yazılı qaydada xəbərdar etmək.

2.3.3. Hesabın açılması üçün Banka təqdim olunan sənədlərdəki məlumatların dəqiqliyini təmin etmək.

2.3.4. Hesab kreditləşdiyi halda əməliyyatları müəyyən olunmuş limit həddində aparmaq.

2.3.5. Bank tərəfindən Müqavilənin II.2.2.6. bəndinə uyğun olaraq əlavə sənədlər tələb edildikdə həmin sənədləri ona təqdim etmək.

2.3.6. Hesabına səhvən vəsait(lər) daxil olduqda, bu barədə Bankı dərhal məlumatlandırmaq və həmin vəsaiti Banka geri qaytarmaq.

2.3.7. Bank qarşısında hər hansı bir icra olunmamış öhdəliyi (kredit, ipoteka, girov və s.) yarandıqda, həmin borcun öz hesabından mübahisəsiz (akseptsiz) qaydada silinməsinə razılıq vermək.

*2.4. Müştərinin hüquqları:*

2.4.1. Qüvvədə olan qanunvericiliklə müəyyən olunmuş qaydada hesabında olan pul vəsaitinə müstəqil olaraq sərəncam vermək.

2.4.2. Hesablaşma-kassa xidməti üzrə Banka tapşırıq vermək, məlumat istəmək, onun

2.2.6. To request the Customer to submit additional documents required in accordance with the change in legislation or upon Bank’s necessity to obtain additional information about the Customer.

2.2.7. In case there is less resource than 1 AZN or its equivalency in Customer’s account within 1 year or no operation was carried out on the account more than 1 year, to close bank account unilaterally.

2.2.8. In case the currency of a transaction on bank account (any kind of Money-in and/or Money-out) differs from the currency of the bank account, to carry out the transaction by converting currency of the funds into the currency of the relevant account or transaction in accordance with the Bank’s tariffs and Bank's current exchange rate for the date of execution of the transaction by the Bank.

*2.3. Customer Responsibilities:*

2.3.1. To ensure compliance of tasks, submitted to Bank, with normative documents of the Central Bank of the AR and Financial Markets Supervison Authority and internal rules of the Bank in force.

2.3.2. Within 3 (three) days to submit written notification on all changes, made in the data of documents, submitted to Bank for opening an account.

2.3.3. To ensure accuracy of the data of documents, submitted to Bank for opening an account.

2.3.4. In case of the account lending, to conduct the transactions within the defined limit.

2.3.5. In accordance with Clause II.2.2.6 of the present Agreement, to submit additional documents to Bank upon request.

2.3.6. In case of placement of funds to the account by mistake, To inform The Bank immediately and return the funds back to the Bank.

2.3.7. To agree, to the direct debit (without dispute) from his/her account of the debt, arisen from any non-executed liability towards Bank (loan, mortgage, pledge etc).

*2.4. Customer’s Rights:*

2.4.1. To issue independent decrees on funds on the account in accordance with the

yerinə yetirdiyi tapşırıqlar üzrə hesabat tələb etmək.

**3. Cari hesabın açılması və hesab üzrə əməliyyatların aparılması qaydaları**

3.1. Hesabın açılması üçün Müştəri Banka qanunvericilik və bankdaxili qaydalarda nəzərdə tutulan sənədləri təqdim edir.

3.2. Sənədlər Bank qaydaları ilə müəyyənləşdirilmiş şərtlərə uyğun olduqda Bank Müştəriyə onun müraciətinə "Bank hesabının açılması üçün ərizə" formasında göstərilən valyuta(lar)da cari hesab açır.

3.3. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, Müştərinin hesabı üzrə sərəncam vermək hüququ yalnız Banka təqdim edilmiş imza nümunəsi vərəqəsində qeyd edilmiş imza səlahiyyətinə malik olan şəxslərə məxsusdur.

3.4. Müştəri, Banka təqdim etdiyi tapşırıqlarda düzəliş, qeyri-dəqiq və ikimənalı ifadələrə yol verməməlidir. Belə halların baş verdiyi halda Bank həmin tapşırıqları icra etməməkdə haqlıdır.

3.5. Müştərinin hesabı üzrə əməliyyatlar onun həmin hesabda olan vəsait qalığı həddində aparılır.

3.6. Hesab üzrə minimum qalıq məbləği (nəzərdə tutulduğu halda) və bütün hesablaşma-kassa xidməti üzrə xidmət haqqı Bankın qüvvədə olan tariflərinə uyğun olaraq müəyyənləşdirilir.

3.7. Müştəri Banka təqdim etdiyi tapşırıqların qanunvericilik və bankdaxili qaydalara uyğun olmasına cavabdehdir. Belə uyğunsuzluğun müəyyən olunduğu halların nəticəsi üçün Bank heç bir məsuliyyət daşımır.

3.8. Müştərinin tapşırıqlarının yerinə yetirilməsi müqabilində Bank müvafiq xidmət haqqını Müştərinin hesabından silir.

3.9. Müştəri bu Müqaviləni imzalamaqla qəbul edir və razılaşır ki, Bankda olan istənilən bank hesabı üzrə həyat keçirilən əməliyyatın (istənilən növ mədaxil və/və ya məxaric) valyutası həmin hesabın valyutasından fərqli valyutada olduqda, əməliyyat Müştəridən əlavə razılıq alınmadan əməliyyatın icra edildiyi günə olan Bankın kommersiya məzənnəsi və Bankın qüvvədə olan tariflərinə uyğun

procedures, described in legislation in force.

2.4.2. To issue orders on payment-cash service to Bank, require information and report on the orders that he\she has executed.

**3. Rules on opening a current account and carrying out transactions on account.**

3.1. In order to open an account, Customer submits to Bank the documents, specified in legislation and internal rules of the Bank.

3.2. If the documents are issued in compliance with the terms, described in Bank rules, Bank opens a current account for Customer in the currency, specified in "Application Form for Opening a Bank Account".

3.3. Excepting the cases, specified by the legislation, the right for issuing orders on Customer's account is only preserved by the persons who are authorized to issue signatures as per the signature specimen card, submitted to Bank

3.4. Customer shall avoid amendments, inaccurate and ambiguous statements in orders, submitted to Bank. In the event of such circumstances, Bank preserves the right not to execute the orders given.

3.5. The transaction on Customer's account is carried out within the limits of funds on his/her account balances.

3.6. The minimal balance amount on the account (if considered) and service fee for all payment-cash services are determined in accordance with Bank's tariffs in force.

3.7. Customer bears responsibility for compliance of orders, given to Bank, with legislation and internal rules of the Bank. Bank does not bear any responsibility for the results of detection of such kind of non-compliance.

3.8. Bank writes-off from Customer's account the relevant service fee, for execution of Customer's orders.

3.9. By signing this Agreement, Customer agrees that if the currency of transaction (any kind of Money-in and/or Money-out) on the bank account differs from the currency of the bank account, the transactions shall be carried out by exchanging currency of the funds into the currency of the relevant account or

şəkildə Bank tərəfindən müvafiq olaraq hesabın və ya əməliyyatın valyutasına mübadilə olunaraq həyata keçirilsin.

3.10. Hesab üzrə sərəncam hüququ müvəqqəti olaraq başqa birinə ötürüldükdə, həmin şəxs üçün ayrıca imza nümunəsi vərəqəsi yaradılır və bu vərəqənin müvafiq bölməsində onun səlahiyyət müddəti qeyd olunur. Həmin müddət bitdikdə, imza nümunəsi vərəqəsi qüvvədən düşmüş hesab edilir.

## 4. Bank hesabı xidmətinin göstərilməsi ilə bağlı xüsusi şərt

4.1. Müştərinin Azərbaycan xaricində hər hansı digər dövlətə aid vergi rezidentliyi, həmçinin Bankla müqavilə münasibətlərində olduğu dövrdə bu hal əmələ gələrsə bu barədə 5 (beş) iş günü ərzində Banka rəsmi məlumat verməli və müvafiq sənədləri Banka təqdim etməlidir. Bu hal müəyyən olunarsa Müştəri müvafiq dövlətin qanunvericiliyənə uyğun olaraq vergi rejimi subyekti və Müştərinin Bankdakı hesabları Azərbaycan Respublikası ilə digər dövlətlər arasında bağlanmış beynəlxalq müqavilələrin tələblərinə uyğun olaraq həmin dövlətə hesabat verilməli hesabı kimi qəbul edilə bilər.

4.2. Müştəri digər dövlətin vergi rejiminin müvafiq subyekti hesab edilərsə və Müştərinin hesabı barəsində hesabat verilməli hesab kimi müəyyən edilərsə, Müştəri özünün hesabı və əməliyyatları barədə bütün məlumatların Azərbaycan Respublikası Vergilər Nazirliyi vasitəsi ilə müvafiq dövlətin müvafiq səlahiyyətli orqanına ötürülməsi, həmçinin müvafiq dövlətin qanunvericiliyinə əsasən hesabından müvafiq vergilərin tutulmasına tam razılıq verir.

4.3. Yuxarıda qeyd olunan hal müəyyən olunarsa, Müştəri Bankın yalnız agent funksiyası daşıdığını dərk edir və öz hesabından müvafiq dövlətin səlahiyyətli orqanlarına müvafiq vergilərin ödənilməsi üçün tutulan məbləğlərə və ötürülən məlumatlara dair Banka qarşı heç bir etiraz irəli sürmür.

## 5. Tərəflərin məsuliyyəti

transaction respectively, in accordance with the Bank's tariffs and Bank's current exchange rate for the date of execution of the transaction by the Bank without any additional consent of the Customer.

3.10. If the right to dispose on the account is temporarily transferred to another one, a separate signature specimen shall be established for that person and the term of his / her term of authority shall be indicated in the relevant section of this specimen. At the end of that period, the signature specimen is deemed invalid.

## 4. Special Term on Provision of Bank Account Service

4.1. In case if Customer has tax residency of any other state outside the Republic of Azerbaijan citizen, or this case occurs during the period of agreement with Bank, Customer shall submit to Bank the official information in this regard and relevant documents within 5 (five) business days. .In the event that such case in determined the Client shall be considered accountable to that State in accordance with the requirements of international agreements concluded between the taxpayer and Client's Bank in accordance with the laws of the State concerned.

4.2. If the Customer is considered a relevant subject of the another relevant state tax regulations, he/she agrees to pass all information on his/her own account and transactions to the relevant relevant authorities by the means of Ministry of Taxes of the Azerbaijan Republic, as well as write-off of relevant tax amounts from his/her account in accordance with relevant legislation.

4.3. If aforementioned case is determined, Customer realizes the fact that he/she may only carry out the functions of Bank's agent and does not have any objections to the write-off of relevant tax amounts and provision of information in this regard to the US authorities from his/her account .

## 5. Responsibility of the Parties

5.1. Müştəri bununla bəyan edir ki, Hesab(lar)dan kommersiya məqsədi ilə istifadə etməyəcək və belə hal baş verərsə yaranacaq vergi məsuliyyətindən xəbərdardır.

5.2. Bankın xidmətlərinin ödənilməsindən imtina etdikdə, yaxud Bankın xidmətlərini vaxtında ödəmədikdə Müştəri Banka hər ötən gün üçün cərimə ödəyir.

5.3. Müqavilənin II.5.1. və II.5.2. bəndlərində qeyd olunan cərimə faizlərinin miqdarı pul öhdəliyinin və ya onun müvafiq hissəsinin icra edildiyi gün üçün Mərkəzi Bankın təyin etdiyi uçot dərəcəsi ilə müəyyənləşdirilir.

5.4. Bank Müştəriyə xidmət edərkən (ödəniş tapşırıqlarının icrası və s. əməliyyatlar zamanı), öz müxbir banklarının və ya digər üçüncü tərəflərin həmin ödənişin icrasını gecikdirilməsi və ya digər səbəblərdən məbləğlərin dondurulması üçün Müştəri qarşısında heç bir məsuliyyət daşımır.

5.5. Müştərinin təqdim etdiyi əlaqə vasitələri (mobil nömrə, e-mail, faks, ünvan) müvafiq ərizə formalarında düzgün qeyd edilməmişdirsə, və ya dəyişikliklər barədə Banka yazılı məlumat verilməmişdirsə, bu zaman Bank, Hesab üzrə göstərilən xidmətlərlə və ya ondakı dəyişikliklərlə bağlı məlumatın vaxtında Müştəriyə çatdırılmamasına görə heç bir məsuliyyət daşımır.

5.6. Müştəri, Bank hesabından cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı məqsədlər üçün istifadə etməmək öhdəliyini öz üzərinə götürür və qanunvericilikdə nəzərdə tutulan müvafiq məsuliyyət daşıyır.

5.7. Bank, tərəfindən cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı halların qarşısının alınması məqsədilə Müştəridən heç bir izah verilmədən və hər hansı bir bank əməliyyatını icra etmədən əlavə sənədlər və məlumatlar tələb edə bilər.

**6. İnternet bank xidməti**

5.1. The Customer hereby declare that the the Account(s) will not be used for commercial purposes and if that happens, he/she is aware of tax obligations.

5.2. In case of rejection to pay for Bank’s services or delay in payment for Bank's services, Customer pays a fine for each overdue day to Bank.

5.3. The amount of fine percents, described in clauses II.5.1 and II.5.2 of the present Agreement is determined in accordance with Bank’s discount rate defined by the Central Bank of Azerbaijan Republic for the execution date of monetary obligation or its relevant part.

5.4. While providing the Customer with banking services (execution of payment orders and other operations), Bank does not bear responsibility for freezing of amounts which happens due to the delay in conduction of that payment by its correspondent banks or other third parties, or any other reasons.

5.5. If the contact details (mobile numbers, e-mail, fax, address) provided by the Customer are not stated correctly in respective application forms, or he/she does not notify the Bank about the changes in writing, in such case Bank shall not bear responsibility for non-delivery of the information to the Customer on the services provided on the Account or changes made to it,

5.6. Customer undertakes the responsibility for not using the Bank account for the purposes of legalization of criminally obtained funds or other property and the financing of terrorism and bears the relevant responsibility, described in the legislation.

5.7. In order to prevent the cases of legalization of criminally obtained funds or other property and the financing of terrorism, Bank may require the Customer to submit additional documents and information without giving any explanation and carrying out any bank transaction.

**6. Internet banking service**

6.1. Müştərinin müraciətinə əsasən Bank, Müştərinin Bankda olan hesab(lar)ı üzrə (bu bənd çərçivəsində Hesab adlandırılacaq) İnternet bank xidmətini (bu bənd çərçivəsində Xidmət adlandırılacaq) göstərir. İnternet bank xidməti çərçivəsində, Bank Müştəriyə İnternet bank sistemində mövcud olan bank əməliyyatlarından istifadə etmək imkanı yaradır.

6.1. Upon Customer's request, Bank provides the Customer with internet banking services (within this clause, hereinafter referred to as "Service") on the account(s), held with the Bank. Within this service, Bank creates opportunities for the Customer to use the bank operations, existing in internet banking system.

6.2. Xidmət Müştəriyə qlobal İnternet şəbəkəsi vasitəsilə təqdim olunur.

6.2. The Service is provided to a Customer through global Internet network.

6.3. Müştəri Bank tərəfindən ona təqdim olunmuş istifadəçi adı, PIN kod və məxfi şifrələr vasitəsi ilə (bundan sonra Kodlar) öz Hesabına çıxış əldə edir və Bank Müştəri tərəfindən bu Hesab üzrə təqdim olunan tapşırıqlar əsasında Xidmət çərçivəsində bütün əməliyyatları həyata keçirir.

6.3. Customer gets an access to his/her account through the user name, PIN code and passwords, provided by Bank (hereinafter referred to as Passwords) and Bank carries out all operations within the scope of this Service in accordance with the orders on this Account, given by the Customer.

6.4. Müştəri bəyan və təsdiq edir ki, onun Xidmət vasitəsi ilə Banka təqdim etdiyi Hesab üzrə əməliyyat tapşırıqları onun öz təşəbbüsü ilə və özü tərəfindən verilmiş hesab olunacaq, həmçinin də Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun şəkildə çap versiyasında hazırlanmış tapşırıqlara bərabər tutulacaq.

6.4. Customer proclaims and approves that operation orders on the account, submitted to Bank through its Service, are considered to have been given by the Customer himself, and will be considered equal to the orders, prepared in printed version in accordance with normative acts of the Republic of Azerbaijan.

6.5. Müştərinin Xidmət vasitəsi ilə əldə etdiyi Hesabdan çıxarış onun yazılı sorğusuna əsasən çap versiyasında hazırlanmış Hesabdan çıxarışa bərabər tutulacaq. Xidmətin göstərilməsi zamanı tapşırıqların icrası üzrə yaranacaq istənilən mübahisələrdə bu çıxarışlar Müştəri tərəfindən verilən tapşırıqların Bank tərəfindən icra olunduğunu təsdiqləyən sənəd kimi çıxış edəcəklər.

6.5. Account Statement, acquired by the Customer through the Service, will be considered equal to the Account, statement prepared in printed version upon his/her written request. In any disputes, arisen from execution of orders during provision of Service, these statements will be considered as the supporting documents for implementation of Customer issued orders by Bank.

*6.6. Müştəri aşağıdakıları öz öhdəsinə götürür:*

6.6.1. Bank tərəfindən ona təqdim olunmuş kodların məxfiliyini təmin etmək və onları üçüncü tərəfə açıqlamamaq.

6.6.2. Xidmətdən istifadə üçün Bankın https://ib.pashabank.az vəya https://Pashabank.digital internet səhifəsinə daxil olmaq.

6.6.3. Xidmətə ilkin qoşulma (giriş) zamanı PIN kodu dəyişmək.

6.6.4. Kodlar itirildiyi (və ya oğurlandığı) zaman dərhal bu barədə Bankı şifahi olaraq telefon vasitəsilə (Müştərinin identifikasiyası üçün zəruri olan

*6.6. The responsibilities of Customer are as follows:*

6.6.1. To ensure confidentiality of passwords issued by Bank and not to reveal them to third parties.

6.6.2. To access the https://ib.pashabank.az or https://Pashabank.digital website in order to use the Service.

6.6.3. To change PIN code during the initial connection (access) to the Service.

6.6.4. In case if the codes are lost (or stolen), to submit immediate notification to Bank orally via telephone (by providing

məlumatları təqdim edərək), və ya Bankın Əlaqə Mərkəzinin əməkdaşlarına müraciət edərək məlumatlandırmaq və Xidmətdən istifadəni bloklaşdırmağı tələb etmək. Şifahi müraciətdən sonrakı 3 (üç) iş günü ərzində Müştəri bu müraciətini məktub və ya faks vasitəsi ilə yazılı olaraq təsdiqləyir. İstənilən halda, Müştəri razılaşır ki, Bankın vaxtında yazılı olaraq məlumatlandırılmaması nəticəsində kodların dəyişdirilmədiyi üçün Banka qarşı heç bir iddia irəli sürməyəcək.

6.6.5. Xidmətdən istifadə bloklaşdırıldığı təqdirdə yeni kodların alınması üçün Banka müraciət etmək.

6.6.6. Bankın İnternet bank sisteminə qoşulma və ondan istifadə qaydalarına riayət etmək.

6.6.7. Xidmətdən istifadə zamanı kodlarda dəyişiklik etdiyi halda onların Bankın tələblərinə uyğun olmasını təmin etmək.

6.6.8. Xidmətdən istifadə zamanı Bankın təhlükəsiz istifadəyə dair tövsiyələrinə riayət etmək.

6.6.9. Təqdim olunan xidmətin maneəsiz göstərilməsi üçün zəruri olan internet sürəti və digər tələbləri yerinə yetirmək.

*6.7. Müştəri aşağıdakı hüquqlara malikdir:*

6.7.1. Bu Müqavilənin II.6.6.4. bəndində qeyd olunan qaydada Xidmətdən istifadənin bloklaşdırılması barədə Bankı təlimatlandırmaq.

6.7.2. Bu Müqavilədə qeyd olunan hallarda Xidmətdən istifadə bloklaşdırıldığı zaman, yeni Kodların verilməsi üçün Banka müraciət etmək.

*6.8. Bank aşağıdakıları öz öhdəsinə götürür:*

6.8.1. Xidmətdən istifadə zamanı texniki problemlər yaranarsa, onları ağlabatan müddətdə aradan qaldırmaq. Bu hal baş verərsə, texniki problemlər aradan qaldırılanadək, Müştəri tapşırıqları Banka adi qaydada, kağız daşıyıcı vasitəsi ilə təqdim edərək əməliyyatlar aparmaq.

6.8.2. Bu Müqavilədə göstərilən qaydada Müştəri tərəfindən müvafiq müraciət daxil olduğu təqdirdə, Hesabdan istifadəni dərhal bloklaşdırmaq.

6.8.3. Müştərinin müraciətinə əsasən Xidmətdən istifadə üçün ona yeni kodlar təqdim etmək.

*6.9. Bank aşağıdakı hüquqlara malikdir:*

6.9.1. Öz mülahizəsinə uyğun olaraq, Müştərini 1 (bir) gün qabaqcadan yazılı qaydada

necessary information for Customer's identification) or to apply to the Bank's Call Center, and request to block the use of the Service. Within 3 (three) days after submitting an oral request, Customer confirms this request in a written form by a letter or fax. In any circumstances, Customer agrees that he/she will not charge Bank for not changing the codes due to Customer's failure to deliver a written notification on time.

6.6.5. To apply to the Bank to receive new codes in case if Service use is blocked.

6.6.6. To comply with the Bank's rule on connection and the use of Internet Banking System.

6.6.7. In case of changing passwords during Service use, to ensure the compliance of those codes with the requirements of Bank.

6.6.8. To comply with Bank's recommendations on safe use during use of Service.

6.6.9. To implement internet speed and other necessary requirements for proper provision of the service.

*6.7. The rights of the Customer are as follows:*

6.7.1. In accordance with the rule, described in clause II.6.6.4 of the present Agreement, to guide Bank on blocking of Service use.

6.7.2. While the Service use is blocked in cases, described in the present Agreement, to request Bank to issue new passwords.

*6.8. The responsibilities of Bank are as follows:*

6.8.1. In case of technical problems during the Service use, to eliminate them within a reasonable period of time. In case of this situation, before eliminating the technical problem, Customer carries out operations by submitting orders to Bank in a usual way through a paper form.

6.8.2. In case of Customer's submission of relevant application in accordance with the rule of the present Agreement, to block immediately the Account use.

6.8.3. To provide the Customer with new passwords upon Customer's request.

xəbərdar etmək şərti ilə birtərəfli qaydada Xidmətdən istifadə qaydalarını dəyişmək.

6.9.2. Müştəri tərəfindən əməliyyatın həyata keçirilməsi üçün natamam (və ya səhv) məlumatların təqdim edildiyi, və ya bu tapşırıq AR qanunvericiliyinə uyğun olmadığı hallarda, həmçinin - əməliyyatın həyata keçirilməsi və ya xidmət haqları üçün Müştərinin Hesabında yetərincə vəsait olmadığı təqdirdə, bu əməliyyatın həyata keçirilməsindən imtina etmək.

6.9.3. Müştərinin Hesabı bloklaşdırıldıqda, ona həbs qoyulduqda və ya AR qanunvericiliyi ilə tələb olunan digər hallarda Müştərinin Xidmət vasitəsi ilə əməliyyatlar etməsini məhdudlaşdırmaq.

6.9.4. Müştəri tərəfindən kodlar 1 (bir) gün ərzində ardıcıl olaraq 3 (üç) dəfə səhv daxil edilərsə, onun Xidmətə girişi məhdudlaşdırmaq.

6.9.5. Zərurət yaranarsa proqram təminatının quraşdırılması, dəyişdirilməsi üçün və ya sistemdə təmir aparılması üçün Xidmətin fəaliyyətini dayandırmaq.

6.9.6. Aşağıdakı hallarda Müştərinin Xidmətə girişini dərhal ləğv etmək:

a. Müştərinin yazılı müraciətinə əsasən;
b. Müştərinin Hesabı bağlandığı təqdirdə.

6.10. Bank aşağıda qeyd olunan hallara görə heç bir məsuliyyət daşımır:

a. Müştərinin səhvi, gecikdirməsi, və ya avadanlığının nasazlığı və ya əlaqə kanallarında kəsilmələr olduğundan Xidmətə çıxışı əldə edə bilməməsi üçün;
b. Müştərinin internet banka daxil olduğu kompüterin proqram və texniki təminatının təmin edilməsinə, bu kompüterin məlumat təhlükəsizliyinə, ziyanverici kod və haker hücumundan qorunmasına və nəticədə müştərinin İnternet bank hesabı ilə əlaqədar məlumatlarının tamlığının, məxfiliyinin, istifadəliliyinin pozulmasına və bununla bağlı digər ziyanlara görə;
c. Xidmətin göstərilməsi üçün üçüncü tərəflərin (İnternet provayder və digər) Bankı təmin etdiyi vasitə, xidmət və məhsullara görə;
d. Bankın nəzarətindən kənar üçüncü şəxslərin Xidmətə icazəsiz girişi üçün;
e. İtirilən (oğurlanmış) Kodlar, səhv əməliyyatlar və Müştərinin bank hesab(lar)ına (və ya Xidmətin özünə) Xidmət vasitəsilə icazəsiz girişlər barədə

*6.9. The rights of Bank are as follows:*

6.9.1. As per its own discretion, to modify unilaterally the Service use rules by providing written notification to the Customer 1 (one) day in advance.

6.9.2. To reject implementation of operations on Customer's Account in cases of submission of incomplete (or incorrect) information by Customer for execution of operations, or if this order contradicts the legislation of the AR, as well as in case of insufficient funds on Customer's Account for payment of service fees.

6.9.3. To limit Customer's execution of operations through the Service if Customer's Account is blocked, arrest is placed on it or other cases, described in the AR legislation.

6.9.4. To limit Customer's Service access in case of incorrect dialing of password by Customer for 3 (three) times consequently during 1 (one) day.

6.9.5. If necessary, to suspend the Service operation for installation and modification of software or conduct of repair works.

6.9.6. To cancel immediately Customer's Service access in the following cases:

a. Due to Customer's written application;
b. Due to the closure of Customer's Account.

6.10. Bank does not bear any responsibility for the following cases:

a. For failure to access to Service due to Customer's mistake or delay, equipment's disruption or in case of cuts on communications channels;
b. For software and technical support of the computer from which Customer accesses internet bank, for information security, protection from malicious code and hacker attack of this computer and as a result violation of integrity, privacy, availability of information and damages arising from these;
c. For means, services and products, provided to Bank by third parties (internet provider etc);

Bankın vaxtında məlumatlandırılmamasının nəticələrinə görə.

6.11. Bu Xidmətlə bağlı yaranan hər hansı maddi zərər və ya məsuliyyəti birbaşa olaraq Müştəri özü və öz hesabına daşıyır.

6.12. Xidmətin göstərilməsi zamanı aparılan əməliyyatlara müvafiq hesab üzrə nəzərdə tutulan şərtlər tətbiq edilir.

## 7. Dövri ödəniş tapşırığı

### 1. Dövri ödəniş tapşırığı barədə məlumat

1.1. Müştərinin müraciətinə əsasən, Bank ona "Dövri ödəniş tapşırığının icrası üzrə ərizə" formasında göstərilən şərtlərlə müvafiq Cari hesab üzrə Müştəriyə təkrar olunan nağdsız ödənişləri və/və ya valyutanın alqı-satqısı üzrə təkrar olunan əməliyyatlarının Dövri Ödəniş Tapşırıqları əsasında Bank tərəfindən avtomatik olaraq həyata keçirilməsi xidmətini göstərir.

1.2. Dövri Ödəniş Tapşırığı - Azərbaycan Respublikasının qanunvericiliyinə və Bankın daxili qaydalarına əsasən tərtib olunan, qeyd olunan günlərdə və intervallarla müəyyən olunan Benefisiara dövri ödənişin avtomatik olaraq köçürülməsinə və/və ya tələb olunduqda, valyutanın alqı-satqısına göstəriş verən Müştəri tərəfindən Banka təqdim olunan yazılı ödəniş tapşırığıdır.

1.3. Benefisiar - Dövri Ödəniş Tapşırığında qeyd olunan Dövri Ödənişin benefisiarıdır.

### 2. Dövri Ödəniş Tapşırığının icrasına dair şərtlər

2.1. Dövri Ödəniş Tapşırığı əsasında həyata keçirilən dövri ödəniş və/və ya valyutanın alqı-satqısı Müştərinin müvafiq Bank Hesabından aparılır.

2.2. Dövri Ödəniş Tapşırıqlarının icrası üçün Müştəri icra olunmalı əməliyyat üzrə Dövri Ödəniş Tapşırığında ödənişin təyinatı, ödəniləcək konkret məbləğlər, Benefisiarın adı, Benefisiarın bank məlumatları və/və ya valyutanın alqı-satqısı üzrə dəqiq məlumat və qanunvericiliklə tələb olunan digər zəruri məlumatlar göstərilməlidir.

d. For access to Service of third parties outside of Bank's control;
e. For the results of failure to timely inform Bank on the cases of lost (stolen) Passwords, incorrect operations and unauthorized access to Customer's bank account(s) (or to the Service itself);

6.11. Customer is directly responsible, on its own, for any material damage or responsibility, emerged in accordance with Service use.

6.12. The clauses, considered in relevant account, are applied to the operations conducted during provision of the Service.

## 7. Standing payment order

### 1. Information about standing payment order

